Kaspi 2019.- 23 may.- S.11.

# ADMİU-da Nazim Hikmətin əsəri tamaşaya qoyulub

31 may saat 14:00-da Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universitetinin Teatr sənəti fakültəsi Dram teatrı və kino aktyoru kafedrasının ikinci kurs tələbələrinin ifasında Nazim Hikmətin "Bayramın birinci günü" pyesi əsasında hazırlanmış eyniadlı tamaşa təqdim olunacaq.

Nazim Hikmət "Bayramın birinci günü" pyesinin mərkəzinə bir nəfərin - onun ailəsinin taleyini qoymuş və bunun vasitəsilə öz ictimai-siyasi, etik və estetik mülahizələrini, həyata, insanlara, ətraf mühitə, yaşadığı cəmiyyətə, kobud heyvani xudbinliyə söykənən burjuaziya mühitinə münasibətini göstərmişdir.

Hadisələr olduqca aydın bir süjet xətti ətrafında, müəyyən məkan və zaman daxilində baş verir. Tamaşaçı əsərdə tez-tez adı çəkilən, özü yox, sadəcə portreti görünən Seyfulla əfəndinin evində, onun ailə üzvləri arasında gedən, dedi-qodu və nifaqın şahidi olur. Bütün bunlar bayram günü, səhərdən gecəyədək cərəyan edir. Seyfulla əfəndi vəfat edən gün evdə onun xanımı Fərxundə, oğlu Rüstəm, qızı Aytən, kürəkəni Firuz və birinci nikahdan olan oğlu Şadi miras qalmış qızıl və cəvahirat üstündə artıq gizli nifrət və kinlərini bir-birinə büruzə verərək, əsl davaya başlayırlar. Qızıllar, brilyantlar tapıldıqdan sonra varislər arasındakı mübarizə qüvvətlənir, ögey qardaşlar bir-birini didib parçalamağa hazır olurlar.

Teatrşünas İnqilab Kərimovun "Azərbaycan-Türkiyə teatrı əlaqələri" monoqrafiyasında bu pyesin yaranma və ilkin təcəssüm tarixi müəllifin dilindən belə nəql edilir:"...1932-ci ildə





"Bayramın birinci günü" pyesini yazdım. Pyesin adı o zaman "Bir ölü evi, yaxud mərhumun xanəsi" idi. Pyes İstanbul "Darülbədai" Teatrında 1932-ci ildə oynanıldı. 1953-cü ildə bu pyesi yenidən işlədim. Rejissoru və baş rolun ifaçısı Ərtoğrul Mühsin idi. "Kəllə" pyesinin qadağan olunmasından sonra biz ehtiyat edərək, pyesi mənim adımla deyil, bir başqa təxəllüslə səhnəyə qoymağı qərara aldıq. Lakin, görünür, biz lazım olduğundan artıq ehtiyat etmişdik. Teatrın daimi tamaşaçısı olan işçilər və mütərəqqi ziyalılar pyesi naməlum bir müəllifin yazdığını güman edərək, tamaşaya gəlmədilər. Gələn tamaşaçıların zövqü isə bizim zövqümüzə uyğun gəlmədiyindən pyes müvəffəqiyyət qazanmadı və bir neçə gündən sonra səhnədən götürüldü. Bəlkə də səbəb bu deyildi. Lakin mən, o zaman gənc və özünübəyənən bir dramaturq kimi səbəbi bunda görürdüm. 1932-ci ildə pyes ayrıca kitabça halında çapdan çıxdı. Dediyim kimi, 1953-cü ildə pyesi yenidən işlədim, İstanbuldakı müvəffəqiyyətsizliyi nəzərə alıb pyesin üstündə öz adımı yazdım və rus dilində nəşr etdirdim. Bir il ərzində pyes Moskva, Leninqrad, Kiyev, Praqa, Berlin, Varşava və başqa şəhərlərin teatrlarında səhnəyə qoyuldu".

Qeyd edək ki, faciə janrında hazırlanan tamaşada Azər Ayazoğlu (Rüstəm), Cavid Cavadzadə (Şadi), Leyla Səlimli (Fərhundə), Fuad Əliyev (Əbdürrəhman), Römən Hüseynov (Firuz), Anar İbrahimov (Camal), Mehman Fətullayev (Şaban), Ləman Qasımova (Aytən), Səbriyyə Rzayeva (Dayə), Aydan Qurbanlı (Zəhra) və Şükür Babayev (Bank müdiri) çıxış edirlər.

Kursun rəhbəri Əməkdar artist, dosent Fərhad İsrafilov, səhnə danışığı müəllimi Əməkdar artist, dosent Mahirə Yaqubova, kafedra müdiri Əməkdar artist, professor Gülşad Baxşıyevadır.

23 may 2019